Azərbaycan.- 2020.- 23 dekabr. S. 2.

# Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə hərbi qulluqçularımız üçün dəstək aksiyası davam etdirilir

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və "Bravo" supermarketlər şəbəkəsi işğaldan azad olunmuş ərazilərimizdə xidmət edən hərbi qulluqçularımız üçün yeni dəstək aksiyası həyata keçirir.

Aksiya çərçivəsində dekabrın 18-dən başlayaraq Kəlbəcər rayonu, Xocavənd rayonunun işğaldan azad olunmuş hissəsi və Hadrut qəsəbəsində hərbi xidməti davam etdirən əsgər və zabit heyəti üçün, onların istəkləri nəzərə alınmaqla, müxtəlif qida məhsulları, fərdi qulluq və gigiyenik ləvazimatlardan ibarət bağlamaların çatdırılmasına başlanılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, növbəti belə tədbir Cəbrayıl və Qubadlı rayonlarında təşkil edilib.